## BİR OVUC ƏLLƏRİN...

*Vaqif Bayatlı Odərə ithaf olunur*
*(esse)*

uzun-uzadı zamanlardı xoşbəxtəm,
özü də təkadamlıq.
siz bilmirsiz təkadamlıq səadətlər necə olur.
heç bilmirsiz təkadamlıq necə olur.
heç bilmirsiz səadətlər necə olur.
heç bilmirsiz necə olur kirli ayaqlara təzə ayaqqabıları geyinmək.
əvvəlcə qucaqlamaq da var hələ. hələ bir dəfə
öpüb gözümün üstə də qoymuşdum.
anam görüb ağlamışdı. demişdi:
- o, möhür deyil. həm də, ayaqqabıya səcdə günahdı.
mənsə soruşmuşdum ondan:
- bəs sənin ayaqlarına?..

anam təzə ölüb. lap təzə.
çağırsam səsimə səs verəcək qədər məsafədə.
bəlkə heç cəsədi soyumayıb hələ də.
and içərəm, əlləri im-istidi anamın.
bax, allah haqqı düz deyirəm. anamın əlləri təkcə əl deyildi axı.
uşaqlıqda oyuncaqlarım olmayıb, hamısını pişiy aparıb deyirdi anam.
bax, mən o zaman anamın əlləriylə oynayırdım.
saymağı da onun barmaqlarında
öyrənmişəm - doqquzacan.
bir barmağını tikiş maşını aparmışdı.
zaman o zaman idi ki, rəqəmlər
doqquzda qurtarırdı.
hələ bağçada müəllimə məni vurmuşdu da bunun üstündə.
çubuğunu stola döyəcləyib qışqırırdı
- niyə doqquzdan sonra on demirsən
ay axmaq uşaq?!
mənsə cavabında kəkələyərək
- anamın əllərində on yoxdu axı,
allah haqqı yoxdu, yoxdu - demişdim...

hələ ağlamışdım da onda...
anam yaxşı adam idi, həlim birisiydi.
yeriyəndə ayağının altında qarışqa qalsaydı belə inciməzdi qarışqa.
allah dediyimiz xərçəng tapşırmışdı ciyərlərinə.
biçarə qadın da allaha inanan adamıydı,
elə qoruyurdu ki xərçəngi...
həkimlər deyirdi, anama bildirməyək xəstəliyini.
bildirməyək deyəndə ki, məndən savayı
bir də atam xəbərdar idi.

bir dəfə böyük bacım anam yatan otağın düz qapısının ağzında yapışdı yaxamdan.
dedi, qaqa, mənə düzünü de, onsuz da bilirəm iynə-dərmanların adından, sən atamın canı düzünü de, anam xərçəngdi?
mənim sakit danışmağıma baxmayın, o, bunları hönkürərək deyirdi.
düzü, özümü itirdim,
gözünə baxa bilmirdim bacımın.
bacım allaha oxşayırdı onda.
elə bilirdim qəti yalan danışa bilmərəm ona.
bir də soruşdu:
- aldatma məni, düzünü de qurbanın olum, o
xaraba xərçəngdəndi, hə? Görüm onu sovxaya qalsın!..
deyirəm ki, mənim sakit danışmağıma baxmayın.
o, bunları hönkürərək deyirdi.
elə mən boynunu qucaqlayıb sakitləşdirmək istəyirdim ki, anamın xəstəlikdən sarsılmış xırıltılı səsi eşidildi: "ay bala, elə demə, allaha
acığ gedər"...

heç bilmirəm necə deyim xoşbəxt olduğumu,
atılmış uşaq kimiyəm indi.
məncə,
bütün atılmış uşaqlar eyni cür oğurluq eləyir,
eyni cür gülümsəyir, eyni cür darıxırlar.
mən darıxanda saçlarımı qarışdırıram,
barmağımı dişləyirəm,
pərdəni dartıb qırıram.
sonra ayağımın altına stul qoyub çıxıb pərdəni
asıram. xoşum gəlir pərdə asmaqdan.
kənddəki evimizdə qəşəng pərdəmiz vardı, upuzun,
baharı rəngli.
qatlayıb vurmuşduq pəncərəyə.
əzizi-girami qonaqlar gələndə açıb süfrə eləyirdik.
o deyirlər e, süfrə müqəddəsdi-filan,
boş-boş söhbətlərdi.
pərdə daha müqəddəsdi, inanın mənə.
daha doğrusu pəncərə.
heyif deyil pəncərə?..
lap çox darıxanda pəncərədən çölə baxıram.
adamlar pəncərə şüşələrinin arxasından
baxanda daha mehriban görsənirlər.
pəncərəsiz yerlər elə axmaq yerlərdi ki.

mən aylarla pəncərəsiz qalmışam.
deyirdim, ay allah, varsansa bir iynə
göndər bu tavana deşib keçsin, iynə ucu
miqdarı deşikdən göy üzünə baxım.
düzdü, iynə ucu miqdarı deşikdən
baxmaqla zövq almaq olmaz göyüzündən.
bir də, bu olmaz sözündən
zəndeyi-zəhləm gedir.
nə bilmək olar? bəlkə də mümkündü.
çox yəqin heç nə başa düşmədiniz
dediklərimdən. lap yaxşı
deyirəm ki, yamanca sevirəm göy üzünü. ta uşaqlıqdan vurğunuyam.
göy üzü qəşəng yerdi, orda pis adamlar yoxdu.
polislər də yoxdu orda.

sevdiyim adamları göy üzünə bənzədirəm.
düz sözümdü.
(bənzədirəm də sərsəm sözdü, oxşadıram daha yaxşı səslənir)

sevdiyim adamları göy üzünə oxşadıram...

nə deyim?
gərək hamının göy üzündə kimisə olsun
mütləq olsun
allah haqqı düz deyirəm
mən bütün günəşli günlərdə göyə baxıb
doqquzacan sayıram.
niyə inanmırsız ki?..

## ANAMIN XATİRƏSİNƏ

bir də var pıçıldamaq
sən gəlməyən küçəyə
eləcə baxmaq
bir də sənin güldüyün
şəkillərə ağlamaq

sonra ikiyə bölündü
ağaclar və adamlar
heç bilmədim necə oldu
hara getdi doğmalar

gəlin köçdü böyük bacım
səndən sonra biləsən
əmimçün də ev tikdilər
daşdan hasar çəkdilər
səndən sonra uçurtdular
nənəmizin daxmasın
ondan qabaq böyük bacım
gəlin köçdü deyirəm
ondan sonra uçurtdular
nənəmizin daxmasın

əşyaların ən qəddarı
toz basmış tuflilərdi
geyib həyətdə gəzirəm
qoy həyət darıxmasın

bilmirəm mən dəyişdim
ya daşlaşdı xatirən
indi daha rahat olub
səni də xatırlamaq

bir də demişdin, gözləyin
bir sabah dönəcəyəm
bir də illər ötüb keçdi
açılmadı o sabah

bir də vardı pıçıldamaq
sən gəlməyən küçəyə
eləcə baxmaq
baxmaq
baxmaq

## AVQUST ŞEİRİ

sevgi - həm də aldanmaqdı
ən azı bir ömür boyu
getmək - həm də düşünməkdi
hardasa bulud olduğunu

birgə olduğumuz yerlərə
əl eləyib keçməyimdisə yoxluğun
sən olmadığın gecələrdə
təkbaşına içməyimdisə yoxluğun
bir küçə yoxsan demək
bir-iki skamyalıq
bir-iki şəkillik yer yoxsan demək bu şə-
hərdə
indi
yatmış divar saatı səssizliyiylə
dünyadan köçməyimdi yoxluğun...

təksən
demək ki, təksən
dilənçi qız and verməyə kimsə tapmırsa
yanında

təksən
demək ki, təksən
ömür ancaq keçirsə dərman içmək saatlarında

yoxsan
demək ki, yoxsan
köynəyimi yağış yuyur asdığın paltar ipində

yoxsan
demək ki, yoxsan
nisyə şərab verməyir dükançı kaftar bibi də

təkcə baş götürüb getməzlərmiş gedənlər
bir ev götürüb gedərlərmiş
bir uşaq
bir beşik,
bir az tez qayıt
bir az içmə
bir az darıxıram apararlarmış özləriylə

təkcə baş götürüb getməzlərmiş gedənlər
həm də heç vaxt qayıtmazlarmış...

## SENTYABR ŞEİRİ

sən axı bilmirsən
üzünnən irağ -
it kimi darıxmağ nə təhər olur...

sən axı bilmirsən
sənin yoxluğun
hamıdan, hər şeydən
beş-betər olur

sən axı bilmirsən
əlim qurusun -
sənə açmadığım zəng zəhər olur
günəş zəhər olur
gün zəhər olur
yağış zəhər olur
yol zəhər olur
bir qurtum arağla
bir siqaretlə
uzanır gecələr
taa... səhər olur

sən axı bilmirsən
hardan biləsən
üzünnən irağ -
it kimi darxımağ nə təhər olur...





Şəhriyar Del Gerani